

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 28 (20.929)

*13 fevral 2014-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Fevralın 12-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Gürcüstan Prezidenti Georgi Marqvelaşvilinin rəsmi qarşılanma mərasimi olmuşdur.

* * *

Fevralın 12-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Georgi Marqvelaşvilinin təkbətək görüşü olmuşdur.

Görüşdə Azərbaycan Respublikası ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq bildirildi. Ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

* * *

Fevralın 12-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Gürcüstan Prezidenti Georgi Marqvelaşvilinin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.

* * *

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyev və Gürcüstan Prezidenti Georgi Marqvelaşvili mətbuata bəyanatlarla çıxış etmişlər.



# Naxçıvanda İran İslam İnqilabının 35-ci ildönümü münasibətilə tədbir keçirilmişdir

Fevralın 11-də İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu ölkəsinin milli bayramı – İslam İnqilabı Günü münasibətilə rəsmi qəbul təşkil etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov rəsmi qəbulda iştirak etmişdir.





İran İslam Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildikdən sonra "Qurani-Kərim"dən ayələr oxunmuşdur.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Məhəmmədtağı Məhəmmədəli qeyd etmişdir ki, 1979-cu ildə İran xalqı öz azadlığı və istiqlaliyyəti uğrunda mübarizəyə qalxaraq qələbə qazanmışdı. İnqilabdan sonra İran İslam Respublikası inkişaf edərək bugünkü səviyyəyə gəlib çatmışdır. Bu gün İran İslam Respublikası xarici siyasət kursunda qonşular, region və İslam dünyası ilə əlaqələrin genişləndirilməsinə üstünlük verir. Dost və qonşu ölkələr olan İran ilə Azərbaycan arasındakı əlaqələr yüksələn xətlə inkişaf edir. Qarşılıqlı səfərlər zamanı imzalanan sənədlər, əldə olunan razılıqlar siyasi, iqtisadi və mədəni sahədə əlaqələrin dərinləşməsi üçün yeni imkanlar açmışdır. Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasındakı əməkdaşlıq ölkələrimizin əlaqələrinin daha da dərinləşməsinə və inkişafına xidmət edir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İslam inqilabının 35-ci ildönümü münasibətilə dost və qardaş İran xalqını təbrik etmiş, İran İslam Respublikasına inkişaf və tərəqqi arzulayaraq demişdir: "Azərbaycanla İran arasındakı münasibətlər dərin köklərə malikdir. Ümummilli liderimiz Heydər Əliyevin 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi İran İslam Respublikasına səfərindən sonra müxtəlif sahələrdə əlaqələrin əsası qoyulmuş, dahi rəhbərin ölkəmizə rəhbərliyi dövründə siyasi və iqtisadi münasibətlər yeni mərhələyə yüksəlmişdir. Bu gün qarşılıqlı əməkdaşlıq xalqlarımızın mənafeyinə və maraqlarına uyğun şəkildə davam etdirilir".

Qeyd olunmuşdur ki, Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İranın Şərqi və Qərbi Azərbaycan vilayətləri arasında da uğurlu əməkdaşlıq mövcuddur. Bu əməkdaşlıq qarşılıqlı səfərlər zamanı daha da möhkəmləndirilmiş, energetika, kənd təsərrüfatı, təhsil, səhiyyə, mədəniyyət, turizm və idman sahələrində əlaqələrin inkişafı üçün hərtərəfli zəmin yaradılmışdır.

Ali Məclisin Sədri əlaqələrimizin inkişafında İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun da mühüm xidmətləri olduğunu diqqətə çatdırmış, bütün bunlara görə cənab Baş konsula və konsulluğun əməkdaşlarına təşəkkürünü bildirmiş, bir daha İran xalqını İnqilab Günü münasibətilə təbrik etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

*Naxçıvan Muxtar Respublikası – 90*

# Möhtəşəm yüksəliş

## *yaxud yeniləşmənin Naxçıvan təcrübəsi*

***Xalqımızın ümummilli lideri Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində düşmən işğalına məruz qalmaqdan xilas edilərək ərazi bütövlüyünü qoruyub saxlayan Naxçıvan Muxtar Respublikası bu gün tarixinin yeni bir intibah mərhələsini yaşamaqdadır.***

**Ulu öndər Heydər ƏLİYEV:** ***Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin.***

Keçən əsrin doxsanıncı illərinin əvvəllərində xaosdan, böhrandan qurtulan Naxçıvan ölkəmizin müstəqilliyi dövründə çətin və məsuliyyətli bir yol keçib. Görkəmli dövlət xadimi Heydər Əliyev bütün Azərbaycanda olduğu kimi, Naxçıvanda da gələcək inkişafın möhkəm bünövrəsini yaratmışdır. Naxçıvanın tarixində xüsusi mərhələ təşkil edən 1995-ci ildən sonrakı dövr isə ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan müstəqillik və dövlətçilik kursunun bu regiondakı parlaq təcəssümüdür. Ölkə Prezidenti İlham Əliyevin böyük uğurla həyata keçirdiyi regionların inkişaf proqramından güc alan Naxçıvan Azərbaycanın son dövr yüksəlişinin fövqündə dayanan möhtəşəm bir quruculuq meydanına çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun ulu öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqəti, ardıcıl və yorulmaz fəaliyyəti sayəsində regionda əldə edilmiş mühüm nəticələr, əslində, yeni bir Naxçıvandan xəbər verir. Bu illər yeniləşmə və inkişaf xüsusiyyətlərinə görə araşdırılıb öyrənilməyə ciddi ehtiyacı olan tarixi bir dövrdür. Bu dövrün tədqiq edilməsi gələcək inkişafın ana xətlərini, əsas meyillərini müəyyən etmək baxımından da olduqca mühüm məsələləri və reallıqları ortaya qoymuş olur. Eyni zamanda bu dövr Naxçıvan Muxtar Respublikasında hərtərəfli inkişafın, yeni yüksəlişin, çətin blokada şəraitində intibah yaratmağın mümkünlüyünü sübut edir, idarəçiliyin Naxçıvan təcrübəsi kimi diqqəti cəlb edir.

*Yol düzgün seçiləndə...*

Dinamik inkişaf yolu səmərəli idarəetmənin nəticəsində gerçəkləşir. Naxçıvan Muxtar Respublikasında son illərdə həyata keçirilən çoxşaxəli quruculuq tədbirləri iqtisadiyyatın bütün istiqamətlərində əsaslı nailiyyətlərin əldə olunmasını təmin etmişdir. Güclü iqtisadiyyat demokratiya və vətəndaş cəmiyyəti, daxili əmin-amanlıq, təsirli xarici siyasət deməkdir. Məhz bu baxımdan həm ümummilli liderimiz Heydər Əliyevin hakimiyyəti illərində, həm də ölkə başçısı cənab İlham Əliyevin bəyanat və çıxışlarında hər zaman vurğulanır ki, ölkənin və xalqın bütün problemlərinin, sosial çətinliklərinin aradan qaldırılmasından tutmuş Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinədək hər bir maneənin dəf edilməsinin optimal yolu məhz dinamik iqtisadi inkişafdan keçir. Heç şübhəsiz ki, məhz bu baxımdan möhtərəm Prezident tərəfindən 2014-cü ilin "Sənaye ili" elan edilməsi də təsadüfi sayıla bilməzdi.

Naxçıvan Muxtar Respublikasının müasir iqtisadiyyatı özünün çoxsahəli strukturu ilə Azərbaycanın digər regionlarından fərqlənir. Bu, muxtar respublikanın Azərbaycan Respublikasının əsas ərazisindən təcrid vəziyyətində yaşaması, müvafiq yerli istehsal sahələrini daxili imkanlar hesabına təmin etmək zərurəti ilə bağlıdır. Son illərdə muxtar respublikada yeni istehsal sahələri yaradılmış,

*Ardı 2-ci səhifədə*

zəngin təbii ehtiyatlar istismara cəlb olunmuş, sənaye müasir texnika və texnologiya ilə təchiz edilmişdir. Təbii ehtiyatların və istehsal imkanlarının səfərbər edilməsi ilə iqtisadi və sosial inkişafda yeni uğurlu nəticələr əldə edilmişdir. Bu strategiyanın reallaşdırılması istiqamətində yeni sürətli mərhələ isə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1995-ci il dekabrın 16-da keçirilmiş sessiyasında başlanğıc götürmüş oldu. Məhz həmin sessiyada Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmiş Vasif Talıbov 1969-cu ildən başlanan Heydər Əliyev quruculuq və inkişaf xəttinin konkret bir regionda – ağır blokada şəraitində yaşayan, davamlı olaraq enerji qıtlığı keçirən, kommunikasiya əlaqələrinin olmaması ucbatından mal-material, xammal gətirilməsində ciddi problemlərlə üzləşən muxtar respublikada fəal yaradıcı gücə malik olduğunu təşəbbüskar və gərgin işi ilə sübut etmişdir. “Mənim ayrıca bir fəaliyyət proqramım olmayacaqdır. Fəaliyyətimi görkəmli dövlət xadimi Heydər Əliyevin dövlətçilik proqramının Naxçıvanda dönmədən həyata keçirilməsinə həsr edəcəyəm”, – deyərək siyasət meydanına qədəm qoyan Ali Məclisin Sədri, əslində, ulu öndərin siyasi kursuna sədaqətini bir daha nümayiş etdirmiş, bu kursa alternativ bir yolun olmadığını bəyan etmişdi. Ümummilli lider Heydər Əliyev sonralar Naxçıvandakı işləri yüksək qiymətləndirərək deyirdi: ***“Mən, ümumiyyətlə, demək istəyirəm ki, Naxçıvanda işlər lazımi səviyyədə gedir. Vasif Talıbovu bu vəzifəyə seçəndə mən onun bir çox xüsusiyyətlərini bilirdim. Amma o, çox gənc idi. Daxildən bir az fikirləşdim ki, gəncliyinə görə, bəlkə də, ağır, çətin olar. Ancaq o sübut etdi ki, Vətəninə, millətinə, xalqına sədaqətli olan adam yaşından asılı olmayaraq böyük işlər görə bilər”.***

Muxtar respublikanın müasir tarixində zaman etibarilə o qədər də böyük olmayan son 20 ilə yaxın dövrün mənzərəsinə diqqət edəndə bu dövrdə ictimai tərəqqi, iqtisadi inkişaf və sosial islahatlar yolunda olduqca mühüm addımların atıldığını görürsən. Eyni zamanda muxtar dövlət kimi mövcudluğunun əsaslarını gündən-günə möhkəmləndirən Naxçıvanın böyük uğurlarına sevinirsən. Bu tarixi dövr ərzində Naxçıvan Muxtar Respublikasının rəhbərliyi ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji inkişaf kursunu muxtar respublikada böyük əzmlə, yüksək dinamizmlə davam etdirmişdir. Həyata keçirilən məqsədyönlü siyasət sayəsində Naxçıvan Muxtar Respublikası sosial-iqtisadi yüksəlişinə, ictimai həyatındakı nailiyyətlərinə görə nəinki ölkəmizin iqtisadi rayonları, eyni zamanda dünya ölkələrinin oxşar muxtariyyətlərə malik inzibati əraziləri arasında əhəmiyyətli dərəcədə önə çıxmışdır. Bu, hər şeydən əvvəl, düzgün seçilmiş yolun uğurudur.

### *Milli maraqlara və dövlətçiliyə sədaqət olanda...*

Naxçıvanın 1990-cı illərdəki həyatını xatırlayanda olduqca dəhşətli və vahiməli günlər göz önünə gəlir. İqtisadi blokada adamların siyasi fəallığını azaltmasa da, o zaman bu torpaq, həqiqətən də, özünün ən ağır, məşəqqətli günlərini yaşayırdı. Xarici düşmənlər bir yana, o vaxtkı ölkə rəhbərliyinin də ədalətsiz mövqeyi bütün naxçıvanlıları “Olum, ya ölüm” dilemması ilə üz-üzə qoymuşdu. Amma bu ağır, mürəkkəb ictimai-siyasi proseslər dövründə tale Heydər Əliyevi yenidən xalqın köməyinə gətirdi. Müdrik, uzaqgörən siyasətçinin doğma torpağa xilaskar dönüşü təkcə Naxçıvanı yox, bütün Azərbaycanı bəlalardan qurtarmış oldu. Məhz bu dövrdə ulu öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də Azərbaycançılığı dövlət ideologiyasına çevirməsi oldu. Heydər Əliyev deyirdi: ***“Müstəqil Azərbaycan dövlətinin əsas ideyası Azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir”.*** Heydər Əliyev məhz siyasətçi idi və ömrünün sonuna qədər də öz Vətəninin çiçəklənməsi, bütün dünyada layiqincə tanınması və qəbul olunması yolunda yorulmadan mübarizə apardı. O, öz çıxışlarında dəfələrlə qeyd edirdi: ***“Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır. Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm”.*** Ümummilli liderimiz tərəfindən yaradılan və dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən, böyük siyasi-ideoloji və tarixi əhəmiyyətə malik olan bu ideologiya Azərbaycan Respublikasını irəli aparır. Heydər Əliyev tərəfindən irəli sürülən Azərbaycançılıq ideyası ölkəmizin dünya birliyinə inteqrasiyasında da qoruyucu amil rolu oynayır. Ulu öndərin Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində işlədiyi qısa vaxt ərzində böyük uzaqgörənliklə qəbul etdiyi siyasi qərarlar regionu ağır bəlalardan xilas etdi.

Bu gün də muxtar respublika həmin strategiyanın prinsiplərini əsas tutaraq inkişaf edir. Tələbkarlıq və prinsipiallıq, yaradıcılıq və təxəyyül, intizam və məsuliyyət, düşüncə və təfəkkür, xeyirxahlıq və humanizm, yurdsevərlik və vətənpərvərlik bu prinsiplərin əsas amili kimi daim diqqət mərkəzindədir. Əslində, ulu öndərin ideyalarından bəhrələnərək qurucu-rəhbər obrazının əsas səciyyəvi xüsusiyyətlərini əxz etmiş adamın həyatında və taleyində bu amillərin cəmləşməsi həm də zamanın tələbi və dərsləri idi. Muxtar respublikanın yeni inkişaf mərhələsinə – intibah dövrünə qədəm qoymasında, şübhəsiz ki, bu amillər mühüm və önəmli rol oynamışdır.

### *Sosial problemlərin həlli diqqət mərkəzində olanda...*

Naxçıvan Muxtar Respublikası rəhbərliyinin məqsədyönlü fəaliyyəti nəticəsində, ilk növbədə, ictimai-siyasi sabitlik qorunub saxlanılmış, dəqiq müəyyənləşdirilmiş prioritetlər, elmi və təcrübi əsaslara söykənən fundamental qərarlar, muxtar respublika sakinlərinin mənafeyinə uyğun reallaşdırılan sosial-iqtisadi siyasət, mobil idarəetmə mexanizmləri, mövcud imkanlardan əhalinin rifahı naminə maksimum istifadə muxtar respublikanın müasir tarixini səciyyələndirən ən xarakterik xüsusiyyətlərdəndir. İqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikada tarazlı və davamlı inkişaf üçün başlıca amil olmuş, inkişafa stimul verən canlanma yaranmış, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni təsərrüfat subyektlərinin yaradılması sayəsində işsizliyin səviyyəsi xeyli dərəcədə azalmışdır. Muxtar respublikanın mərkəzində olduğu kimi, rayonlarda da, hətta ən uzaq kəndlərdə belə, nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaratmışdır.

Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunmuşdur.

Bu gün muxtar respublikanın bütün yaşayış məntəqələrində ən müasir tələblərə cavab verən sosial və inzibati obyektlər tikilir, yollar çəkilir, körpülər salınır. Magistral və yerli əhəmiyyətli yolların yenidən qurulması və bərpası geniş vüsət alan quruculuq tədbirlərinin əsas tərkib hissəsidir. Müasir tələblər səviyyəsində inşa olunan yollar əhalinin rahat gediş-gəlişi üçün imkanlar yaratmışdır. Bu inkişaf ucqar kəndlərin iqtisadi inkişafına da müsbət təsir göstərmişdir. Nəqliyyat Nazirliyi muxtar respublikanın bütün yaşayış məntəqələrinə gediş-gəlişi təmin etmək məqsədilə yeni marşrutların yaradılmasını diqqət mərkəzində saxlamış, yerli icra hakimiyyətləri ilə birlikdə xüsusən qış aylarında bütün marşrutların vaxtlı-vaxtında hərəkətini təmin etmişdir.

Prioritet sahə olan təhsilin inkişafına xüsusi diqqət yetirilməsi vacib məsələlərdən olmaqla, ümumtəhsil məktəblərində informasiya-kommunikasiya texnologiyalarının imkanlarını genişləndirmişdir. Məktəblərdə hər 13 şagirdə 1 kompüter düşməsi özlüyündə maraqlı faktdır. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi müvafiq qurumlarla birlikdə əhalinin sağlamlığını qoruyur, iş yerlərində, bazarlarda, kommunal və ictimai xidmət obyektlərində sanitar-gigiyena qaydalarının tətbiqinə nəzarəti həyata keçirir. Hər il muxtar respublikada onlarla yeni müəssisə istifadəyə verilir, yeni iş yerləri açılır, əhalinin məşğulluq probleminin həlli istiqamətində tədbirlər görülür.

* * *

İndi XXI əsrin Naxçıvanı sürətlə, dinamik inkişaf edən, gündən-günə gözəlləşən bir bölgədir. Əslində, bu bölgədə aparılan quruculuq işlərinin vüsəti o qədər sürətli və ahəngdardır ki, adamlar gündən-günə artan bu xarüqələri möcüzəyə bənzədiblər. Onsuz da dünyanı heyrətə salan bu diyar istər tarixi keçmişi, sərt təbiəti və əfsanəvi abidələri, istər zəhmətkeş və fədakar adamları ilə əsl möcüzələr diyarıdır. Ulu öndərin ***“Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin”*** sözləri indi xoş bir arzu çərçivəsindən çoxdan çıxmış və bu günümüzün möhtəşəm reallığına çevrilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin böyük əminliklə söylədiyi sözlər bu möcüzənin sirrini dəqiq açıqlayır: “Yol düzgün seçiləndə, milli maraqlara və dövlətçiliyə sədaqət olanda, adamların qayğısı və ehtiyacları hədəfə alınanda istənilən möcüzəni yaratmaq olar”.

**Namiq ƏHMƏDOV**
**“Xalq qəzeti”**
***11 fevral 2014-cü il***

# Heydər Əliyev yolu ilə

***Dünən Heydər Əliyev adına Hərbi Liseyin müstəqil lisey kimi fəaliyyət göstərməsinin 10-cu ildönümü münasibətilə “Heydər Əliyev yolu ilə” adlı tədbir keçirilib.***



Tədbiri Heydər Əliyev adına Hərbi Liseyin şəxsi heyətlə iş üzrə bölmə rəisi, polkovnik-leytenant Azad Cəfərov açıb.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədov “Ulu öndər Heydər Əliyev və Azərbaycan gəncliyi” mövzusunda çıxış edərək ölkəmizdə dövlət-gənclər siyasəti istiqamətində həyata keçirilən tədbirlərdən danışıb. Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev daim gənclərə güvənərək onlara böyük etimad göstərib. Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin əsas tərkib hissəsi kimi xüsusi yer tutub və Azərbaycan gəncliyi dövlətin diqqət və qayğısını hər zaman öz üzərində hiss edib. Məhz ulu öndərimizin işləyib hazırladığı gənclər siyasəti gənclərimizin hərtərəfli inkişafını təmin edib. Dahi şəxsiyyətin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra fəaliyyətinin ilk dövrlərində – 1994-cü ilin iyulunda Gənclər və İdman Nazirliyinin yaradılması haqqında sərəncam imzalaması ilə müstəqil ölkəmizin yeni gənclər siyasətinin təməli qoyulub. Ölkəmizdə gənclər üçün yaradılan münbit şəraitdən faydalanan gənclərimiz bu gün Vətənimizin daha da inkişafı üçün yüksək nəticələr və məqsədlər uğrunda böyük əzmlə çalışır, öz bilik və bacarıqlarını artırırlar. Məruzəçi bildirib ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan gənclər siyasətinin əsas məqsədi gənc neslin fiziki, mənəvi-psixoloji cəhətdən sağlam formalaşmasından, istedadlı gənclərin üzə çıxarılması və onların ölkənin gələcəyinə töhfə verməsindən ibarətdir. Məhz bunun nəticəsidir ki, bu gün ölkəmizdə, eyni zamanda muxtar respublikamızda yüksək intellektual səviyyəyə, milli düşüncəyə, vətənpərvərlik hissinə malik gənclər formalaşır. Azərbaycanın gələcəyi olan bu gəncliyin formalaşmasının əsasında Heydər Əliyev ideyalarına sədaqət dayanır.

Sonra “Heydər Əliyev fenomeni” adlı filmə baxış olub.

**✍ Səbuhi HƏSƏNOV**

***Əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsi muxtar respublikada həyata keçirilən sosial-iqtisadi islahatların tərkib hissəsidir. Davamlı məqsədyönlü tədbirlər muxtar respublikanın iqtisadiyyatının dinamik inkişafını təmin etmiş, nəticədə, əmək bazarının inkişafına və yeni iş yerlərinin açılmasına əlverişli şərait yaranmışdır.***

# Dövlət proqramının icrası istiqamətində yeni internet saytı hazırlanır

Muxtar respublikanın müasir iqtisadi inkişafında əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə “2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı” təsdiq edilmişdir.

Bu proqramın icrası nəticəsində muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaranacaq, peşə hazırlığı əmək bazarının tələblərinə uyğunlaşacaq, işaxtaran şəxslərin sosial müdafiəsi gücləndiriləcəkdir. Bunun üçün proqramda sistemli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Cari ilin ilk ayı ərzində dövlət proqramında nəzərdə tutulan tapşırıqların icrası istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, muxtar respublikada əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşmasını, tələb və təklif arasındakı tarazlığı təmin etmək məqsədilə əmək bazarının real vəziyyəti tədqiq edilmişdir. Eyni zamanda məşğulluq xidməti orqanları tərəfindən müəssisələrdən boş iş yerlərinin (vakansiya) toplanması, həmçinin dövlət və özəl müəssisələrdə sosial müdafiəyə ehtiyacı olanların və işə düzəlməkdə çətinlik çəkənlərin işlə təmin olunması üçün kvotanın ayrılması işləri həyata keçirilmişdir.

Əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatların işaxtaranlara çatdırılması məqsədilə internet saytı hazırlanır.

Məşğulluq xidməti orqanlarında qeydiyyatda olan 157 işaxtaran vətəndaşın vakant iş yerlərinə, sosial müdafiəyə ehtiyacı olan 4 şəxsin kvota (norma) yerlərinə göndərilməsi təmin edilmiş, eyni zamanda 20 nəfər peşə kursuna cəlb olunmuşdur.

İşaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək məqsədilə sosial əhəmiyyətli haqqödənilən ictimai işlər təşkil edilmişdir. Belə ki, sağlamlıq imkanları məhdud qadınlarla bağlanmış müqavilə əsasında toxunan 503 ədəd yun şərf hərbi hissələrə təhvil verilmişdir. Eyni zamanda xalq tətbiqi sənətinin ən qədim sahələrindən biri olan xalçaçılıq ənənələrinin yaşadılması məqsədilə evdə xalça toxunması üçün 13 nəfərlə əmək müqaviləsi bağlanmış, onlar hana və digər lazımi alətlərlə, habelə materialla təmin edilmişlər.

Hazırda Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələblərinə müvafiq kənd təsərrüfatı, xidmət sahəsi və milli sənət növü üzrə kadrların hazırlanması məqsədilə traktorçu-maşinist, aşpaz, dərzi peşələri üzrə kurslar davam etdirilir. Həmçinin mərkəzdə xalçaçılıq peşəsi üzrə kursun keçilməsi üçün hazırlıq işləri görülür.

Muxtar respublikanın ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədilə peşəyönümü məşğələlərə başlanılmışdır. Peşəyönümü məşğələlərin təşkili əmək bazarının tələblərinə uyğun işçi qüvvəsinin formalaşmasına, məşğulluq məsələlərinin həllinə, şagirdlərin meyil və maraqları nəzərə alınaraq onların düzgün peşə seçimi etməsinə imkanlar yaradır.

İşçilərin əmək hüquqlarının təmin edilməsi istiqamətində də bir sıra işlər görülmüş, Naxçıvan şəhərində fəaliyyət göstərən 12 müəssisə ilə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşəəmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanması təmin edilmişdir.

Qeyd olunan dövlət proqramının icrası muxtar respublika sakinlərinin məşğulluğunun artırılmasına, onların sosial müdafiəsinin gücləndirilməsinə şərait yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Tarixi Əlincəqalanın əzəmətini özünə qaytaracaq tarixi sənəd



***Yadımdadır, universitet təhsili illərində toponimika fənnini bizə tədris edən professor yaxın ərazilərin adlarını izah edərkən belə demişdi: "Azərbaycan ərazisində yayılan toponimlərin əksəriyyəti əkslik təşkil edir. Məsələn, bir ərazidə hər hansı bir toponim "isti su" mənasını verirsə, əmin olun ki, yaxınlıqda "soyuq su" mənasını verən hansısa toponim də vardır. Ya da hər hansı bir kənd adında "aşağı" sifəti varsa, yaxınlıqda bunun əksini ifadə edə bilən "yuxarı" sifəti ilə ifadə olunmuş daha bir toponim olacaqdır".***

Məsələn, Babək rayonu ərazisində yerləşən Sirab və Qahab kəndləri kimi. "Sirab" "suyu bol olan" mənasını verirsə, "Qahab" "suyu az olan" deməkdir.

**Yuxarıdakı məntiqdən çıxış etsək, bu yurda, bu torpaqlara gələn xoşniyyətli insanları xoş üzlə "ya sin" (ey insan) deyərək qarşılayan Möminə xatın türbəsi vardırsa, bu yurda bəd niyyətlə gələn, onu əsarətdə saxlamaq istəyən insanları sərt qarşılayan bir rəmz də olmalı idi. Yurdun çətin günündə bu xalqın üz tutduğu, sığındığı, varını və varlığını qoruduğu bir məkan, yadelliyə, düşmənə yurdumdan "əlini çək" dediyi bir məkan – Əlincəqala.** Xalq etimologiyasında adının izahı "əlini çək", bəzi tədqiqatçılara görə, "Alancik" ("boş sahə") mənasını verən Əlincəqalanın tikilmə tarixini bəzən 2 min il bundan əvvələ aid edirlər. "Kitabi- Dədə Qorqud"da möhkəm istehkam kimi təsvir olunan Əlincəqala haqqında orta əsr tarixçilərindən Nəsəvi, Şərafəddin Əli Yəzdi, Həmdullah Qəzvini, türk səyyahı Övliya Çələbi, alman hərbçi səyyahı İohan Şiltberqer də məlumat vermişlər.

**"Əlincə"** sözünün hansı mənaya gəldiyini düşünərkən, fikrimizcə, digər bir ehtimal da ola bilər. Bəzi orta əsr mənbələri Əlincəqaladan **"Yeröncək"** deyə bəhs edir (bax: Nailə Vəlixanlı "Naxçıvan – ərəblərdən monqollaradək (VII-XII əsrlər"). Sonralar "Əlincək"ə çevrilən "Yeröncək" isə "ilk məskən, ilk yurd" mənasını verir. Belə ki, sözün birinci hissəsi "yer" bu gün də dilimizdə və bir çox digər türk dillərində "yurd", "məkan", "torpaq" mənalarında işlənir. Əslində, bu söz qədim şumer türklərində "ur" kimi ifadə olunan məskən-şəhər sözünün sonradan şəkildəyişməsi də hesab oluna bilər (Ur – yur (yer), yurt – yurd). **"Öncək"** isə daha çox Orta Asiyanın türk xalqlarının dillərində "giriş", "ilkin", "əvvəlki" mənalarını ifadə edir. Bu söz bu gün dilimizdə öz varlığını "öncə" kimi saxlayır. Beləliklə də, ehtimal ki, "Yeröncək" qala ilə bağlı ad deyildir, hələ qalanın bu ərazidə inşa olunmasından daha əvvəl bu əraziyə verilən ad olmuşdur. **Kim bilir, bəlkə, Gəmiqayadan Nuh qövmündən ayrılan Nuhun Türk adlı oğlunun və tərəfdarlarının ilk məskənidir bura.**

Öncəki yazılarımızdan birində də qeyd etdiyimiz kimi, Əlincəqala həm müqəddəsliyi, həm də qəhrəmanlığı ilə Naxçıvanı qoruyan rəmzdir. Əlincəqala bu xalqın yenilməzlik simvolu, bu yurdun məğlubedilməzlik nişanəsidir. Əsrlərlə Azərbaycanın ərazisində mövcud olmuş neçə-neçə feodal dövlətinin məhz Əlincəqalanı strateji ərazi kimi nəzarətdə saxlamağa çalışması təsadüf hesab edilə bilməz. Əlincəqalanın Atabəylər dövründə dövlət üçün nə dərəcədə əhəmiyyətli olduğunu Sədrəddin Əli əl-Hüseyni "Əxbar əd-dövlət əs-Səlcuqiyyə"də də yazır. Onun yazdıqlarından aydın olur ki, **ilk Eldəniz hökmdarları dövründə İraq və Azərbaycandan yığılan bütün gəlirlər məhz Əlincəqaladakı xəzinədə toplanmışdır. Hətta bəzi dövrlərdə məhz Əlincəqaladakı xəzinəyə sahiblənmək uğrunda ciddi mübarizə getmişdir. Qalanın müdafiə sistemi o dərəcədə möhkəm olmuşdur ki, hətta bir çox Eldəniz hökmdarları ən çətin vaxtlarda məhz Naxçıvana sığınmağa çalışmışlar.** Mənbələrdə verilən məlumatlar da bunu təsdiq edir. Sonuncu atabəy Özbəyin dövründə dövlətin Təbrizdən idarə olunmasına baxmayaraq, dağıdıcı monqol hücumlarından canını qorumaq üçün o, ilk növbədə, Naxçıvanda məskunlaşmağa çalışmışdı. İbn əl-Əsir 12 cildlik "Əl-kamil fi-t-tarix" ("Mükəmməl tarix") əsərində bu haqda bəhs etmişdir: *"Təbrizin əsl hakimi Özbək Pəhləvan oğlu oranı buraxıb getmişdi. Çünki o, fəaliyyətsiz bir əmir idi. ...Tatarların Həmədandan çıxıb gəlməkdə olduqlarını eşitdikdə özü Təbrizi buraxıb Naxçıvana getmiş və ailəsini özündən uzaqlaşdırmaq üçün Xoya göndərmişdi".* Mirxondun məlumatlarından isə aydın olur ki, Özbək Naxçıvana gəldikdən sonra Əlincəqalaya çəkilmişdir. Azərbaycan Atabəylər dövlətinin ən qüdrətli dövrlərində buranın xüsusi iqamətgaha çevrilməsi, dövlət xəzinəsinin məhz Əlincəqalada gizlədilməsi ərazinin və qalanın əhəmiyyətindən xəbər verir. **Bir zaman öz daxilində Atabəylərin xəzinəsini gizlədən, 1387-1401-ci illərdə, 14 il Əmir Teymurun qoşunlarının hücumlarına müqavimət göstərən Əlincəqala bu gün şanlı tariximizin neçə-neçə xəzinəsini yaşadır özündə.**

Xəzinələr isə o zaman əhəmiyyətli olur ki, onlar torpağın dərin qatları altından tapılaraq üzə çıxarılır, qorunur və gələcək nəsillərə ötürülür. Bu mənada **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun imzaladığı "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncam Naxçıvan ərazisindəki tarixi abidələrin öyrənilməsi istiqamətində 2005-ci ildən başlanılan işin davamı, əzəmətli Əlincəqala tarixinin yeni epoxasının başlanğıcıdır.** 2007-ci ildən dünya əhəmiyyətli abidələrin siyahısına daxil edilmiş Əlincəqalada sərəncama əsasən hazırlanacaq elmi bərpa layihəsi əsasında işlərin aparılması, "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin yaradılması ulu tariximizin bu yadigarının həm keçmiş əzəmətinin, həm də keçmiş şöhrətinin özünə qaytarılmasına xidmət edəcəkdir. Başqa sözlə desək, əsrlər boyunca dünyanın dörd bir tərəfindən gəlmiş fatehləri heyran qoyan Əlincəqala sərəncamın icrasından sonra dünyanın dörd bir tərəfindən gələn turistləri heyran qoyacaqdır. Bu isə təkcə tarixi abidənin qorunmasını deyil, bu istiqamətdə mövcud olan turizm marşrutu potensialının reallaşdırılmasını, Əlincəni görmək istəyən turistlərə xidmət edə biləcək xidmət obyektlərinin yaradılmasını təmin edəcəkdir. Bu turizm marşrutu istiqamətində yerləşən kəndlərdə yaşayan insanlar gələn turistləri təkcə Əlincəqalanın əzəməti ilə deyil, həm də yaradılan xidmət müəssisələrində qonaqlara təqdim edəcəkləri milli təamların ləzzəti ilə heyrətləndirə bilərlər.

*Uzun illər bölgənin tarixinin, etnoqrafiyasının öyrənilməsi ilə məşğul olmuş alimlərimiz hesab edirlər ki, bu sərəncam Naxçıvan tarixi üçün mühüm və müdrik bir sənəddir.*

***AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev:*** "Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" 11 fevral 2014-cü il tarixli Sərəncamının çox böyük tarixi əhəmiyyəti vardır. Naxçıvan öz tarixi abidələri ilə məşhurdur. Bu abidələr içərisində Əlincəqalanın özünəməxsus yeri və rolu vardır. Əlincəqala deyəndə, ilk növbədə, əyilməzlik, mübarizlik, möhtəşəmlik yada düşür. Çünki orta əsrlərdə düşmənlərdən qorunmaq üçün bura həm də bir sığınacaq, müdafiə yeri olmuş, Azərbaycan Atabəylər dövlətinin və sonrakı dövlətlərin xəzinəsi orada qorunmuşdur. Orta əsrlərin ictimai-siyasi həyatında Əlincəqalanın rolu və xidmətləri olduğundan həmin dövrün mənbələrində qalanın adı və fəaliyyəti dönə-dönə xatırlanır.

Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələri özünün ikinci həyatını yaşayır, 60-a qədər tarix və mədəniyyət abidələri bərpa və rekonstruksiya olunmuşdur. Artıq növbə Əlincəqalaya çatmışdır. Yaxın vaxtlarda bu unikal abidənin bərpasının şahidi olacağıq".

***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, tarix elmləri doktoru, professor Fəxrəddin Səfərli:*** "Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı tədbirlər içərisində tarix-mədəniyyət abidələrinə, onların qorunmasına, bərpasına və təbliğinə yüksək dövlət qayğısı özünü parlaq şəkildə göstərir. Kütləvi informasiya vasitələri ilə verilən xəbərlər əsasında biz bunun yeni bir təzahürünün şahidi olduq. Ali Məclisin Sədri xalqımızın əlçatmazlıq, əyilməzlik, məğrurluq və məğlubedilməzlik simvolu, müxtəlif dövlətlərin xəzinələrinin saxlanması üçün etibarlı bir yer, ümumiyyətlə, Azərbaycanın ən güclü müdafiə qalalarından olan və tariximizdə şərəfli bir iz buraxan Əlincəqalanın bərpası haqqında sərəncam verməklə çox xeyirxah bir işə imza atmışdır. Naxçıvanın orta əsrlər dövrünün tarixi ilə məşğul olan bir tədqiqatçı kimi Ali Məclis Sədrinin bu sərəncamını çox böyük razılıq hissi ilə qarşılayır və onu tariximizə, mədəniyyətimizə hörmətin, ehtiramın, diqqətin, qayğının yeni bir təzahürü hesab edirik".

***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə:*** "Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Sərəncamı Naxçıvanda başlanmış bir ənənənin – tarixi abidələrə, bütövlükdə, maddi və mənəvi mədəniyyətimizə münasibətin yeni bir təzahür formasıdır. Məlumdur ki, Naxçıvan şəhəri və muxtar respublikamızın digər ərazilərindəki bir çox tarixi abidələrdə çox ciddi şəkildə bərpa işləri aparılmış və aparılmaqdadır. Əlincə kimi möhtəşəm, Azərbaycan tarixində, bütövlükdə, Şərq tarixində böyük rol oynamış bir qalanın bərpası haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin verdiyi Sərəncam olduqca diqqətəlayiqdir. Tariximizə, tarixi irsimizə böyük diqqətin bariz nümunəsidir və bütün tarixçilərin, vətəndaşların ürəyincə olan bir məsələdir. Yəni bu təkcə Əlincəqalaya deyil, Azərbaycan tarixinə, Azərbaycan tarixşünaslığına, Azərbaycanın maddi və mənəvi mədəniyyətinə dövlət qayğısının ən böyük təzahürüdür".

***AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev:*** "Əlincəqala qədim Oğuz yurdu, Kəngərli yurdu Naxçıvanın əyilməzliyinin, döyüşkənliyinin, məğlubedilməzliyinin simvoludur. Əlincəqala haqqında nəinki orta əsr mənbələrində, hətta XVIII-XIX əsrlərə aid sənədlərdə, arxiv materiallarında da maraqlı məlumatlar vardır. Bu sənədlərlə tanışlıq sübut edir ki, Əlincəqala təkcə inkişaf etmiş orta əsrlər dövründə deyil, XVIII-XIX əsrlərdə də öz əzəməti ilə görənləri heyran etmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan yeni sərəncam hamının ürəyincədir. "Şərq qapısı" qəzetində sərəncamla tanış olarkən burada həm də muzeyin yaradılacağını öyrəndikdə bu sərəncamın nə qədər ali məqsədlərə xidmət etdiyi mənim üçün bir daha aydın oldu. Bu, Naxçıvanın rəhbərinin tariximizə sonsuz sayğısından doğan bir tarixi sənəddir".

**Elnur KƏLBİZADƏ**

## Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində kollegiya iclası keçirilib

***Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində 2013-cü il ərzində görülmüş işlər və qarşıda duran vəzifələrə dair kollegiya iclası keçirilmişdir. Kollegiya iclasında nazir Rövşən Məmmədov məruzə ilə çıxış etmişdir.***

Qeyd olunmuşdur ki, elektron xidmətlərdən "bir pəncərə" prinsipi əsasında istifadənin təşkili üçün ***"e-hokumet.nmr.az"*** domen adlı "Elektron hökumət" portalı yaradılmışdır. "Elektron hökumət" portalı üzərindən real vaxt rejimində rabitə xidmətləri və genişzolaqlı internet xidmət haqlarının ödənilməsi ilə bağlı müvafiq infrastruktur yaradılmış, istifadəçilərin portalda real vaxt rejimində qeydiyyatdan keçməsi üçün İAMAS sisteminə qoşulma və portalın təhlükəsizliyi ilə əlaqədar tədbirlər görülmüşdür.

2013-cü ilin noyabr ayından "Naxçıvanpoçt" MMC tam olaraq fəaliyyətə başlamış, ötən ilin dekabr ayı ərzində 750 min manatdan artıq kommunal xidmət haqlarının poçt müəssisələri tərəfindən yığılması təmin edilmişdir. Bundan əlavə, şəhər və rayon mərkəzi poçt şöbələrində kommunal xidmət haqlarının bank kartları vasitəsilə ödənişi üçün 8 ədəd POS-terminal qurulmuş, növbəti mərhələdə iri yaşayış məntəqələrindəki poçtlarda POS-terminalların quraşdırılması nəzərdə tutulmuşdur.

Vurğulanmışdır ki, 2013-cü ilin aprel ayında muxtar respublikanın daxili telekommunikasiya şəbəkəsinin alternativliyinin təmin edilməsi məqsədilə daha bir mühüm layihənin icrasına – şəhər və rayon mərkəzi avtomat telefon stansiyalarına çıxış verilməklə Ordubad-Sədərək fiber-optik kabel magistralının tikintisinə başlanmışdır. Ümumi uzunluğu 240 kilometrə yaxın olan yeni fiber-optik kabel xəttinin tikintisinin bu ilin I rübündə başa çatdırılması nəzərdə tutulur. Ümumilikdə, 2013-cü il ərzində 274 kilometrdən artıq optik kabel xətlərinin tikintisi həyata keçirilmişdir. Hazırda muxtar respublika üzrə fiber-optik telekommunikasiya xətlərinin ümumi uzunluğu 932 kilometrə çatdırılmışdır.



Muxtar respublikanın yaşayış məntəqələrində genişzolaqlı internet xidmətlərinin təşkil edilməsi tədbirləri 2013-cü ildə də davam etdirilmişdir. Hazırda muxtar respublikanın yaşayış məntəqələrinin 91 faizində genişzolaqlı internet xidmətləri göstərilir.

Ötən ilin fevral ayından başlayaraq muxtar respublikaya daxil olan internet kanalının sürəti 1 Gb/s-dək artırılmış, aprel ayının 1-dən isə muxtar respublikada genişzolaqlı internet xidmətlərinin tarifləri orta hesabla 40 faiz aşağı salınmışdır.

Hazırda muxtar respublikanın yaşayış ərazilərinin 75 faizində rəqəmsal televiziya yayımı təmin edilmişdir. Bağlanmış müqaviləyə əsasən, bu ilin iyun ayına kimi bütün yaşayış məntəqələrində 12 kanallı sosial paketin yayımının başa çatdırılması nəzərdə tutulur.

"Hazırda muxtar respublika üzrə istismar edilən 146 avtomat telefon stansiyasının 80-i yeni nəsil telefon stansiyalarının payına düşür", – deyən nazir bildirmişdir ki, üçüncü mərhələnin başa çatması ilə yeni nəsil telefon şəbəkəsi üzrə abunəçilərin sayı ümumi sabit telefon abunəçilərinin 65 faizini təşkil edir.

Kollegiya iclasında işdə buraxılan nöqsan və çatışmazlıqlar da təhlil edilmiş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.

Məruzə ətrafında "Naxçıvanpoçt" MMC-nin direktoru İlqar Sadiqov, Babək Rayon Rabitə İdarəsinin rəisi İsgəndər Qasımov, Şahbuz Rayon Rabitə İdarəsinin rəisi Fazil Umudov və başqaları çıxış etmişlər.

Kollegiya iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rəfael Babayev çıxış etmişdir.

**Xəbərlər şöbəsi**

# Görülən işlər təhlil edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində ötən ilin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilmişdir. İclasda təhsil naziri Piri Nağıyev çıxış edərək bildirmişdir ki, 2013-cü ilin əvvəlindən bu vaxta qədər muxtar respublikada 8304 şagird yerlik 24 təhsil müəssisəsi tikilərək və ya yenidən qurularaq istifadəyə verilmiş, 4 təhsil müəssisəsinin tikintisi və ya yenidən qurulması davam etdirilir.

2013-cü ildə ümumtəhsil məktəblərini 4186 nəfər məzun bitirmiş, onlardan 3238 nəfəri ali və orta ixtisas məktəblərinə qəbul üçün sənəd vermişdir. Bu da məktəbi bitirənlərin 77,35 faizini təşkil edir. İmtahanlarda iştirak edən məzunların 1677 nəfəri ali məktəblərə qəbul olunmuşdur ki, bu da sənəd verənlərin 51,76 faizi deməkdir. Qəbul imtahanlarında 312 nəfər 500-700 intervalında bal toplamışdır.

Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2013-cü ilin yekunları və qarşıda duran vəzifələrə dair keçirilən müşavirədə Ali Məclisin Sədri təhsil işçilərinə haqlı iradlarını bildirərək informasiya-kommunikasiya texnologiyalarından istifadə vəziyyətini qənaətbəxş olmadığını qeyd etmişdir. Bu sahə üzrə verilmiş tapşırıqların icrasını təmin etmək, tədrisin keyfiyyətinin yüksəldilməsi, təlim-tərbiyə işinin düzgün təşkil edilməsi, bütün fənn müəllimlərinin qabaqcıl texnologiyalardan lazımi şəkildə istifadə etmələri və bunun şagirdlərimizə aşılanması məqsədilə bütün təhsil işçiləri mövcud imkanlardan yüksək səviyyədə istifadə etməlidirlər.

“Ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin ali təhsilli ixtisaslı müəllimlər tərəfindən tədris olunması da daim diqqətdə saxlanılmışdır”, – deyən nazir əlavə etmişdir ki, bu istiqamətdə aparılan işlər nəticəsində 2013-cü ildə bədən tərbiyəsi və fiziki tərbiyə ixtisasına 55 nəfər qəbul olunmuşdur.

Bildirilmişdir ki, şahmatın tədrisini təmin etmək məqsədilə muxtar respublika rəhbərinin qayğısı ilə təhsil müəssisələrinə 489 dəst ayaqlı, 500 dəst asma və 3905 dəst stolüstü şahmat verilmişdir. Şahmatın bu sahə üzrə bilikli və bacarıqlı müəllimlər tərəfindən tədris olunması üçün Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası Təhsil Nazirliyi ilə birlikdə test imtahanları keçirmiş, imtahanlarda iştirak edən müəllimlərdən 300 nəfərə sertifikatlar verilmişdir.

Muxtar respublikamızda yaşayan sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi də diqqətdə saxlanılan məsələlər sırasında olmuşdur. Bu məqsədlə təhsil müəssisələrində inteqrasiyalı təhsilə cəlb edilmiş 844 nəfər sağlamlıq imkanı məhdud şəxsə zəruri köməkliklərin edilməsi və xüsusi nəzarətin təmin olunması məktəb psixoloqlarına həvalə edilmişdir. Bununla bağlı müşavirə keçirilmiş və ümumtəhsil məktəblərində həmin uşaqların cəmiyyətə adaptasiya olunması, bacarıq və qabiliyyətlərinin inkişaf etdirilməsi üçün lazımi tövsiyələr verilmişdir.

Sonra məruzə ətrafında çıxışlar olmuşdur.

* * *

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində keçirilən kollegiya iclasında da ötən ilin yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib.***



Kollegiya iclasını Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov açaraq məruzə ilə çıxış edib.

Məruzəçi bildirib ki, ötən il nazirlik dövlət gənclər siyasəti və idman yarışları çərçivəsində 218 tədbir keçirib. Hesabat ilində muxtar respublikada “Xəmsə” milli intellektual oyunlarının yeniyetmələr arasında III Azərbaycan çempionatı keçirilib, Gənclərin Yay Universiteti fəaliyyətini davam etdirib, “Nuh yurdu” intellektual müsabiqələri təşkil edilib.

Azad Cabbarov deyib ki, bəhs olunan dövrdə muxtar respublikada idman infrastrukturunun inkişafı, maddi-texniki bazanın gücləndirilməsi istiqamətində bir sıra işlər görülüb, şəhər və rayonlarımızda yeni idman obyektləri həyata vəsiqə alıb. Yenidən təmir olunan Naxçıvan Muxtar Respublika Stadionu, Naxçıvan şəhərində yeni yaradılmış Stend və Güllə Atıcılığı Mərkəzi də ötən il idmançıların ixtiyarına verilən obyektlər sırasında olub. 2013-cü ildə “Araz-Naxçıvan” peşəkar futbol komandası yenidən formalaşdırılıb, bu komandanın futbol üzrə I divizionda iştirakı təmin edilib. Bəhs olunan dövrdə muxtar respublika 2 beynəlxalq yarışa, paralimpiya festivalına, super kubokun final oyununa və futbol veteranları arasında turnirə ev sahibliyi edib.

Qeyd edilib ki, bu gün muxtar respublikada, ümumilikdə, 68 min 437 nəfər yeniyetmə və gənc idmanla məşğul olur. 2013-cü il ərzində ayrı-ayrı növlər üzrə gənc idmançılarımızın respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib, idmançılarımız dünya çempionatlarında 6, Avropa çempionatında 4, beynəlxalq turnirdə 6, Azərbaycan birinciliklərində 52 medal qazanaraq muxtar respublikanı bu yarışlarda layiqincə təmsil ediblər.

Məruzəsində işdə buraxılan nöqsanlardan da bəhs edən nazir vurğulayıb ki, bəzi federasiyaların fəaliyyətində hələ də bir sıra nöqsanlar müşahidə olunmaqdadır. 2013-cü ildə federasiyalara tanınmış məşqçilərin müəyyən müddətdə muxtar respublikaya dəvət olunması, yerli məşqçilərin təlimlərdə iştirak etmələri, onların əlavə hazırlıq kurslarına göndərilməsi və milli komandaların təlim-məşq toplanışları keçmələri ilə bağlı tapşırıqlar verilsə də, bəzi federasiyalar bu tapşırıqları lazımınca yerinə yetirə bilməyiblər. Qarşıda duran vəzifələrdən biri də 2015-ci ildə ölkəmizdə keçiriləcək Birinci Avropa Olimpiya Oyunlarında muxtar respublika idmançılarının iştirakı üçün ciddi hazırlıq işlərinin görülməsidir.

Kollegiya iclasında nazirlik aparatının Gənclərlə iş şöbəsinin müdiri Canməmməd Canməmmədovun, Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimovun, Babək Rayon Gənclər və İdman İdarəsinin rəisi Nazim Salmanlının, Sədərək Rayon Gənclər və İdman İdarəsinin rəisi Etibar Əliyevin, İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbinin direktoru Yaşar Səfərovun, Şərur Olimpiya-İdman Kompleksinin direktoru Rza Camalovun çıxışları olub.

* * *



Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində 2013-cü ildə görülən işlərə və qarşıya qoyulan vəzifələrə həsr olunmuş yığıncaq keçirilmişdir.

Yığıncağı müəssisənin direktoru Behruz Əzimov açmış və məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, 2013-cü ildə muxtar respublika əhalisinin, təşkilat və müəssisələrin neft və maye qaz məhsullarına olan tələbatını ödəmək məqsədilə müəssisə Bakı Neft Bazası ilə bağlanmış müqaviləyə əsasən, 33 min 989,3 ton A-92 benzini, 4999,9 ton A-95 benzini, 220,3 ton A-80 benzini, 82 min 845,4 ton dizel yanacağı, 31045,8 ton bitum, 9131,7 ton mazut, 293,5 ton müxtəlif yağlar, 2176,3 ton maye qaz almışdır.

Bildirilmişdir ki, ötən il müəssisə tərəfindən ümumi dövriyyəsi 72104,5 min manat olan 162090,4 ton müxtəlif növ neft məhsulları satılmışdır ki, bu da 38454,6 ton avtobenzin, 78000,2 ton dizel yanacağı, 11952,1 ton mazut, 31155,8 ton bitum, 2232,9 ton maye qaz, 293,6 ton müxtəlif növ yağlardan ibarət olmuşdur. 2013-cü ildə müəssisə satışdan 990,4 min manat mənfəət əldə etmişdir.

1 yanvar 2014-cü il tarixə müəssisənin anbarlarında 2621,7 ton A-92 benzini, 1,6 ton A-95 benzini, 4687,8 ton dizel yanacağı ehtiyatı vardır.

Müəssisənin rəhbəri 2014-cü ildə qarşıda duran vəzifələrdən, bu vəzifələrin yerinə yetirilməsinin vacibliyindən danışmışdır.

Məruzə ətrafında müzakirələrdə müəssisənin anbar müdirləri Kazım Rzayev, Elbrus İbrahimbəyli, Mirmehdi Seyidov çıxış etmişlər.

**Xəbərlər şöbəsi**

# Nəqliyyatçılar ötən ilə yekun vurublar



Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin kollegiya iclasında məruzə ilə çıxış edən nazir Mirsənani Seyidov bildirmişdir ki, nəqliyyat-yol kompleksi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, beynəlxalq əməkdaşlığın hüquqi əsaslarının genişləndirilməsi istiqamətində mühüm işlər görülmüş, nəqliyyat-yol kompleksinin fəaliyyətini tənzimləyən müvafiq normativ-hüquqi baza yaradılmışdır.

Beynəlxalq sərnişindaşıma sahəsində iş daha da təkmilləşdirilmiş, Naxçıvan Şəhər Nəqliyyat İdarəsinin İran İslam Respublikasının “Didari Seyri Giti” şirkəti ilə bağladığı müqaviləyə əsasən, Naxçıvan-Təbriz-Tehran marşrutu fəaliyyətə başlamışdır. Həmçinin qardaş Türkiyə Respublikasının “İğdırlı Turizm” firması ilə bağlanmış müqaviləyə əsasən, bu ölkənin əksər böyük şəhərlərinə sərnişindaşıma xidməti davam etdirilməkdədir.

Nazir bildirmişdir ki, ötən ilin may ayında yeni avtobus parkının istifadəyə verilməsi muxtar respublikada nəqliyyat-yol kompleksinə göstərilən diqqət və qayğının daha bir nümunəsi olmuşdur.

2013-cü il ərzində avtobuslar vasitəsi ilə Naxçıvandan Bakıya 55 min 193 nəfər, Bakıdan Naxçıvana isə 46 min 423 nəfər sərnişin daşınmışdır. Sərnişindaşıma xidmətinin səviyyəsinin yüksəldilməsi məqsədilə sözügedən marşrut üzrə 2 ədəd “Mercedes Benz-Travego” markalı avtobus alınıb gətirilmiş və 2014-cü ilin əvvəlindən sərnişinlərin istifadəsinə verilmişdir.

Bildirilmişdir ki, hesabat dövründə 327 nəfər fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmiş, 596 nəqliyyat vasitəsinə lisenziya kartları verilmiş, vergiyə cəlb olunmuş 14 min 38 avtonəqliyyat vasitəsinə fərqlənmə nişanı verilmişdir. Fərqlənmə nişanı verilmiş avtonəqliyyat vasitələri tərəfindən dövlət büdcəsinə 242 min 574 manat vergi ödənilmiş, lisenziya almış avtomaşınların texniki müayinədən keçirilməsindən əldə olunmuş 49 min 67 manat vəsait nazirliyin xüsusi hesabına, lisenziya haqqı olaraq toplanmış 49 min 50 manat vəsait isə büdcəyə köçürülmüşdür.

Qarşıda duran vəzifələrdən də danışan Mirsənani Seyidov qeyd etmişdir ki, 30 yanvar 2014-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə “bütün nəqliyyat növləri üzrə xidmətin yüksəldilməsi və mövcud infrastrukturun təkmilləşdirilməsi istiqamətində səylərin artırılması” barədə Nəqliyyat Nazirliyinə konkret tapşırıqlar verilmişdir. Nəqliyyat-yol kompleksinin bütün sahələrində bu tapşırıqların həyata keçirilməsi üçün qüvvələr səfərbər edilməlidir.

“Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən ötən il ərzində 4937 vaqon – 294 min 707 ton yük daşınaraq 397 min 861 manat, 131 min 406 nəfər sərnişin daşınaraq 28 min 845 manat vəsait əldə edilmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanında da ötən il ərzində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir. Qeyd olunan dövr ərzində yerli hava xətti ilə 237 min 358 nəfər sərnişin, 3 milyon 967 min 253 kiloqram baqaj, 762 min 663 kiloqram yük və 29 min 277 kiloqram poçt daşınması həyata keçirilmişdir. Beynəlxalq hava xətti ilə Naxçıvan-Moskva reysi ilə 4597 sərnişin, 76 min 942 kiloqram baqaj, Naxçıvan-İstanbul reysi ilə 5407 nəfər sərnişin və 43 min 453 kiloqram baqaj yükü daşınmışdır.

Bu müddət ərzində “Naxavtoyol” Dövlət Şirkətinin maddi-texniki bazası gücləndirilmiş, 2 ədəd yükləyici, 1 ədəd bitumsəpən maşın və 1 ədəd vərdənə alınmışdır.

Sonra məruzə ətrafında “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mahir Əliyevin, Naxçıvan Beynəlxalq Hava Limanının direktoru Mənsur Gülməmmədlinin, “Naxavtoyol” Dövlət Şirkətinin Baş direktoru Bəhruz Əsgərovun çıxışları olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***


## Culfa Rayon Təhsil Şöbəsi

*2014-cü il üçün kotirovka elan edir*

*Dəftərxana ləvazimatlarının satın alınması*

Kotirovka 14 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 17 fevral 2014-cü il tarixdə saat $11^{00}$-də Culfa Rayon Təhsil Şöbəsində açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Həzi Quliyev***
***telefon: 546-02-80***

## Culfa Rayon Mərkəzi Xəstəxanası

*2014-cü il üçün kotirovka elan edir*

*1. Dərman ləvazimatlarının satın alınması*
*2.Ərzaq məhsullarının satın alınması*

Kotirovka 25 fevral 2014-cü il tarixədək qəbul edilir. Sorğuda aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, texniki, iqtisadi və maliyyə imkanlarına malik olması göstəricilərinə üstünlük veriləcəkdir. Kotirovka zərfi 26 fevral 2014-cü il tarixdə saat $12^{00}$-də Culfa Rayon Mərkəzi Xəstəxanasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Əlaqələndirici şəxs: Məmməd Ağayev***
***telefon: 546-07-22***


### *İtmişdir*

Naxçıvan şəhərinin Tumbul kənd sakini Məmmədov Tağı Hidayət oğlunun adına olan JN $115^{A}$ inventar nömrəli 10307028 kodlu “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, “İstiqlal” küçəsi 105, mənzil 19-da yaşayan Hacıyeva Rahilə Yusif qızının adına olan 5120 inventar nömrəli texniki pasport və 02/38 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

## *Allah rəhmət eləsin*

AMEA Naxçıvan Bölməsinin kollektivi Naxçıvan Dövlət Universitetinin İnformatika kafedrasının müdiri
**NURƏLİ MAHMUDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi
**YUSİF BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsinin kollektivi
**YUSİF BABAYEVİN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin müəllim kollektivi
**NURƏLİ MAHMUDOVUN**
vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Ordubad Şəhər Uşaq Musiqi Məktəbinin direktoru Azər Məmmədov və məktəbin kollektivi
**YUSİF BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Uşaq Filarmoniyasının direktoru Aqib Seyidov və filarmoniyanın kollektivi
**YUSİF BABAYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
**TURAL SƏFƏROV**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Elnur Kəlbizadə**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və “Əcəmi” NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 163**